# G İ R İ Ş

Stalinin ölümündən sonra Sovet Azərbaycanında olan vəziyyət SSRİ-nin digər respublikalarındakı vəziyyətə bənzəmirdi. 15 müttəfiq respublika arasında yeganə olaraq Azərbaycan SSR rəhbərliyi Stalinin ölümündən az sonra vəzifədən çıxarılmış və həbs edilmişdi. Söhbət yalnız 20 il respublikaya rəhbərlik etmiş Mir Cəfər Bağırovdan getmirdi. Uzun müddət respublikaya rəhbərlik etmiş şəxslərə etimadsızlıq yaranmış, onların bir hissəsi həbs edilmiş, digər bir hissəsi vəzifədən uzaqlaşdırılmış və kommunist partiyası üzvlüyündən çıxarılmışdı. Bütövlükdə respublika səksəkə içində idi.

Azərbaycan Sovet Respublikasının 70 illik tarixində 1953–1959-cu illər zaman etibarilə elə də böyük dövrü əhatə etmir. Lakin zaman etibarı ilə qısa olsa da, tariximizin həmin dövrü baş verən hadisələrin məna tutumu, millətin taleyindəki rolu, siyasi hadisələrin dramatikliyi baxımından diqqəti cəlb edir. 1953–1959-cu illərdə Azərbaycanda nə baş vermişdir? Bəziləri üçün qaranlıq, bəziləri üçün müəmmalı, bəziləri üçün də şirin bir xatirəyə çevrilən bu illərdə, sözün əsl mənasında, Moskvanı hövsələdən çıxaran hansı addımlar atıldı? 1953-cü ilin yayından başlayaraq 1959-cu ilin ortalarına qədər respublikada siyasi həyatın canlanmasına, millətin və onun mənəvi dəyərlərinin dirçəlməsinə səbəb olan hansı hadisələr cərəyan etdi? Bütövlükdə respublikanın yeni rəhbərliyində Azərbaycanın taleyinə münasibətdə formalaşan milli və mənəvi meyllər nə ilə bağlı idi? Doğrudanmı o dövrdə sənədlərdə yazıldığı kimi, Azərbaycanda millətçilik ideyası gücləndi, milli özünüdərk prosesi dərinləşdi? Azərbaycan ədəbiyyatında, tarix elmində və mədəniyyətində hansı yeniliklər baş verdi? Yalnız tariximiz üçün deyil, taleyimiz üçün də maraqlı olan belə ritorik suallara bu araşdırmada aydınlıq gətirməyə cəhd göstərilmişdir.

Stalinin ölümündən sonra SSRİ-nin siyasi həyatında bir sıra dəyişikliklər müşahidə edilməyə başladı. İlk addım kimi həmin dövrdə nəinki Stalinin

həyatına qəsddə, eyni zamanda beynəlxalq sionizmlə əlaqədə ittiham edilən "həkimlərin işi"nin istintaqı dayandırıldı və bu işə xitam verildi. Gürcüstana böyük bəlalar gətirmiş "Minqrel millətçi qruplaşmaları"nın işi dayandırıldı və qeyri-qanuni köçürülmüş vətəndaşların 1953-cü ilin aprelində doğma torpaqlarına geri dönməsinə icazə verildi. Destalinizasiya fonunda milli siyasətdə liberallaşma meylləri duyulmağa başlandı. Təsərrüfatın planlaşdırılmasında və mədəni həyatın idarə olunmasında müttəfiq respublikaların hüquqları, az da olsa, genişləndirildi. 50-ci illərin ortalarında kənd əhalisinin pasportlaşması prosesi şəhərlərə axını gücləndirdi. Sovet İttifaqı Kommunist Partiyasının (Sov.İKP) XX qurultayı Stalin dövrünün cinayətlərinin bir hissəsini ortaya qoydu. Ölkədə reabilitasiya prosesi başladı. Stalin deportasiyalarının qurbanı olmuş xalqlar müəyyən məhdudiyyətlə doğma yurdlarına döndülər. Sovetlər Birliyinin bu dönəmi tarixçilər tərəfindən "Xruşşov baharı" kimi dəyərləndirilir. Əslində bu termin sovet yazıçısı İlya Erenburqun "Yumşalma" (Оттепель) romanından gəlir. Bu ifadənin məna tutumunu və Azərbaycan dilinin xüsusiyyətlərini nəzərə alaraq 50-ci illərin ortalarında SSRİ-də gedən prosesləri siyasi anlamda "Xruşşov baharı" olaraq da adlandırmaq mümkündür.

Hər halda, 30–40-cı illərdə sərt xarakter daşıyan Stalin totalitarizminin buzu 50-ci illərdə "Xruşşov baharı"nın gəlişi ilə tədricən əriməyə başlamışdı. Cəmiyyətin canı bir balaca isinməyə başladı. Lakin Nikita Xruşşovun sovet sisteminin əsaslarına toxunmayan ehtiyatlı islahatları yarımçıq xarakter daşıyırdı. Məsələn, deportasiya olunmuş bir sıra xalqlara doğma torpaqlarına və yurdlarına dönüb, ləğv edilmiş muxtariyyətlərini bərpa etmək icazəsi verilsə də, Krım tatarları, Ahıska türkləri, Volqaboyu almanlarının bu hüquqları tanınmadı.

"Xruşşov baharı"nın gəlişi Azərbaycanda da siyasi həyatın canlanmasına səbəb oldu. 1954-cü ilin əvvəllərində respublikada yeni rəhbərlik formalaşdırıldı. Azərbaycan Kommunist Partiyasının XX qurultayında Mərkəzi Komitənin birinci katibi seçilən İmam Mustafayev, respublika Nazirlər Sovetinin sədri təyin olunan Sadıq Rəhimov və Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə başçılıq edən Mirzə İbrahimov partiya, təsərrüfat və mədəniyyət sahəsindən rəhbərliyə gəlmişdilər. Onların keçmişi repressiya orqanları ilə bağlı olmadığından Azərbaycanın yeni rəhbərliyi Sovet İttifaqında gedən siyasi proseslərin dərinləşməsində maraqlı idi. Onlar Mir Cəfər Bağırovun həb-

sindən sonra, əsasən, Bakı şəhər partiya təşkilatında çoxluq təşkil edən qeyri-azərbaycanlıların özlərini Bağırov rejiminin qurbanları kimi təqdim etmək cəhdlərinin qarşısını ala bildilər və bütövlükdə ölkədə başlanmış prosesləri Azərbaycanın köklü maraqlarına uyğunlaşdırmağı bacardılar.

1956-cı ilin avqustunda respublika konstitusiyasına dövlət dili haqqında xüsusi maddə əlavə edildi, Azərbaycan dili dövlət dili statusu aldı. Dövlət idarələrində, kargüzarlıq işlərində, təhsil və mədəniyyət müəssisələrində ana dilinin geniş tətbiqi milli şüurun inkişafına böyük təkan verdi. Respublikanı “kommunist millətçiliyi” dalğası bürüdü. Bakı şəhərinin idarə və müəssisələrində iclasların hansı dildə aparılması məsələsi ətrafında kəskin mübahisələr bəzən qarşıdurmaların güclənməsi ilə müşayiət olunmağa başladı. Bu prosesin gedişində Azərbaycanın yerli əhalisi tədricən özünü ölkənin sahibi kimi təsbit etdi. Kadr seçiminin ağırlıq mərkəzi azərbaycanlıların üzərinə keçirildi. Elmin, ədəbiyyatın və mədəniyyətin inkişafında azərbaycançılıq ön plana keçməyə başladı. Bütün bunlar milli və mənəvi dəyərlərin dirçəldilməsinə, tarixi keçmişin milli çalarlarının öyrənilməsinə, formaca milli mədəniyyətin inkişafına əlverişli şərait yaratdı.

Həmin dövrdə oxşar problemlər digər sovet respublikalarında da var idi. 1936-cı ilin Stalin konstitusiyasından sonra 1937-ci ildə milli dillərini dövlət dili kimi konstitusiyalarına daxil etməyə nail olmuş Gürcüstan və Ermənistandan başqa digər bütün müttəfiq respublikalarda, ilk növbədə isə Ukrayna, Latviya, Litva və Estoniya kimi milli narazılığın gücləndiyi respublikalarda dil məsələsi bütün kəskinliyi ilə hiss edilirdi. 1953-cü ildə milliyyətcə rus olan Leonid Melnikovu ukraynalı Aleksey Kiriçenko əvəz etsə də, nə Ukraynada, nə də Pribaltika respublikalarında ana dillərin konstitusion əsaslarını yaratmaq, dövlət dili haqqında yerli qanunlar qəbul etmək mümkün oldu. Azərbaycan yeganə respublika idi ki, Sov.İKP MK-nın razılığı olmadan 1956-cı ildə bu addımı ata bildi və Qafqazdakı qonşuları ilə yaranmış mənəvi fərqi aradan qaldıra bildi. Bu həmin dövr respublika rəhbərliyinin və Azərbaycan xalqının böyük tarixi nailiyyəti idi.

50-ci illərdə müttəfiq respublikaların hüquqlarının bir qədər genişləndirilməsinə, təsərrüfat müstəqilliyinin müəyyən dərəcədə artmasına baxmayaraq mərkəzlə əyalətlər arasında qapalı ziddiyyətlər davam etməkdə idi. Milli respublikalarda narazılığın artması ilk növbədə Moskvanın siyasətində böyük millətçilik şovinizminin güclənməsi ilə bağlı idi. Nikita Xruşşov islahatlarının gedişində partiya aparatının möhkəmlənməsi buna daha eybəcər xarakter

verdi. Sov.İKP MK aparatının işçiləri ilə yerli rəhbərliklər arasında yaranmış gərgin münasibətlər bunun açıq təzahürü idi. Mərkəzi Komitə aparatının işçiləri respublikaların rəhbərlərinə alçaldıcı nəzərlərlə yanaşır, onlarla öz tabeliyində olan adamlar kimi rəftar edir, yerlərə gələndə özlərini əsl "satraplar" kimi aparırdılar. Mərkəzi aparat işçilərinin Azərbaycan haqqında hazırladıqları çoxsaylı arayışlar, müxtəlif vaxtlarda respublika partiya təşkilatında aparılmış yoxlamalar, təhlükəsizlik orqanlarının gizli məlumatları, Azərbaycanda və onun paytaxtı Bakıda gedən proseslərlə bağlı ölkə rəhbərliyinə edilən məruzələr bir qayda olaraq yerli idarəçiləri narazı salırdı. 1959-cu ilin yazında Azərbaycanı yoxlayan Sov.İKP MK briqadasının yeni açıqlanan hesabatı və həmin hesabatın MK Rəyasət Heyətində müzakirə forması bunun əyani ifadəsidir. İmam Mustafayevlə Moskva aparatçıları arasında olan mübahisələr ilk növbədə, onların yerli rəhbərliyə olan alçaldıcı münasibəti ilə bağlı idi. Sov.İKP MK aparat işçiləri İmam Mustafayevi hələ 1955-ci ildə rəhbərlikdən uzaqlaşdırmaq istəyirdilər. 1955-ci ilin aprelində Bakı şəhər partiya komitəsinin birinci katibi vəzifəsinə təsdiq olunan zaman Sov.İKP MK-nın müttəfiq respublikalar üzrə partiya orqanları ilə iş şöbəsinin müdiri Yevgeni Qromov İmam Mustafayevi siyasi səriştəsi aşağı olan, bacarıqsız partiya xadimi kimi səciyyələndirmişdi. 1955-ci ilin avqustunda Mərkəzi aparatın məsul işçiləri onun vəzifədən uzaqlaşdırılmasını məqsədəuyğun hesab etmişdilər. Lakin 1955-ci ildə olmasa da, 1959-cu ildə onlar buna nail ola bildilər.

SSRİ-də milli ayrı-seçkilik olduğu kimi, milli ziddiyyətlər və milli narazılıqlar da var idi. Sovet cəmiyyətinin acı təcrübəsinə əsasən, yerli rəhbərliklər millətçilik ittihamından oddan qorxan kimi qorxur və milli məsələ ilə ehtiyatlı davranmağa çalışırdılar. Nəriman Nərimanovun ağrılı taleyi bunun bir nümunəsi idi. Hələ 20-ci illərdə millətçilik ittihamının hədəfinə çevrilmiş Nərimanov nəinki 50-ci illərin keşməkeşli hadisələrində, hətta 70-ci illərdə belə bu ittihamın ağırlığını öz taleyində yaşadı. Lakin yerli rəhbərliklərlə yanaşı, eyni zamanda mərkəz də milli məsələdən kifayət qədər ehtiyat edir, onu antisovetizmin geniş yayılmış forması kimi qiymətləndirir, baş vermiş millətçilik faktlarını qabartmamağa üstünlük verirdi. Bütün dünyaya milli harmoniya dövləti kimi təqdim edilən Sovetlər Birliyi, əslində, milli ziddiyyətlərin məngənəsində boğulurdu.

50-ci illərdə milli özünüdərkin aparıcı istiqamətə çevrilməsində Azərbaycan elmi, ədəbiyyatı və incəsənəti mühüm rol oynadı. Milli mövzuların sənətə

daxil olması, ədəbi əsərlərdən millətin taleyinin görünməsi, elmi mübahisələrin bir sıra həqiqətləri ortaya qoyması milli kimlik şüurunun, ilk növbədə isə tələbə-gənclərin dünyagörüşünün formalaşmasında mühüm rol oynadı. Həmin dövrün hadisələrinin öyrənilməsi respublikada milli təəssübkeşlik hissinin gücləndiyini, aktiv siyasi həyata can atan, Azərbaycanın keçmişinə böyük maraq göstərən yeni bir gənc nəslin yarandığını göstərir. Bu nəsil Azərbaycanın tarixinə, mədəniyyətinə və hətta taleyinə münasibətdə bəzi mətləbləri anlamağa başlamışdı. Böyük alim Yusif Məmmədəliyevin rəhbərlik etdiyi Azərbaycan Dövlət Universitetində, respublika Elmlər Akademiyasının sahə institutlarında yerli kadrlar ön mövqelərə keçmişdilər. 1957-ci ilin payızında universitetdə böyük türk şairi Nazim Hikmətlə keçirilmiş görüş Azərbaycan gəncliyinin milli ruhunu ortaya qoydu. Bu, bir kommunist mühacir şairə deyil, türklüyü üçün qəribsəmiş bir gəncliyin qərib bir türk şairinə qəlbinin dərinliyindən gələn sevgisinin ifadəsi idi.

50-ci illərdə Cənubi Azərbaycanın taleyi üzərində köklənmiş Cənub mövzusu ədəbiyyatda vətənpərvərliyin ifadə vasitəsinə çevrilmişdi. 1945–1946-cı illərdə Cənubi Azərbaycandakı hadisələrdə iştirak edən Azərbaycan ziyalıları bu dərdin ağırlığını ürəklərində daşıyırdılar. Səməd Vurğunun "Yandırılan kitablar"ı, Süleyman Rüstəmin "İki sahil"i, Mirzə İbrahimovun "Gələcək gün"ü, Rəsul Rzanın "Təbriz – gözəl şəhər" silsiləsindən qələmə aldığı "Ərk qalası" həmin dərdin ağrılı ifadəsi idi. 50-ci illərin siyasi həyatında mühüm rol oynayan rəhbər partiya, sovet və təsərrüfat işçilərinin, həmin dövrdə milli kimlik ideyasının inkişafında fəal iştirak edən Azərbaycan ziyalılarının böyük bir hissəsi sözün tam mənasında Cənub hadisələrində vətənpərvərlik məktəbi keçmişdi.

50-ci illərdə SSRİ-də cərəyan edən siyasi proseslər, Stalinin ölümündən sonra ölkədə yaranmış vəziyyət, reabilitasiya prosesinin başlanması, milli siyasətin həyata keçirilməsində baş verən yeniliklər, hakimiyyətdaxili intriqalar, partiya diktaturasının yaranması, Nikita Xruşşovun öz rəqibləri üzərində qələbəsi və onun fəaliyyətində volyuntarist meyillərin başlanması haqqında son illərdə Rusiyada çoxlu sayda sənədlər toplusu, elmi araşdırmalar və publisistik əsərlər nəşr edilmişdir. Sovetlər Birliyinin dağılmasından sonra açılan yeni arxiv materialları bu dövrün dolğun siyasi mənzərəsini yaratmaq üçün böyük imkanlar yaratmışdır. İlk növbədə son 20–30 il ərzində Rusiyada bəhs edilən dövrün sosial-siyasi proseslərini özündə əks etdirən nadir sənəd-

lər toplularının nəşr edilməsi öyrənilən problemlərin mənbəşünaslıq təməlini müqayisəyə gəlməz dərəcədə zənginləşdirmişdir. Bu araşdırmanın hazırlanmasında akademik Aleksandr Fursenkonun rəhbərliyi altında nəşr edilmiş "Kreml arxivləri" silsiləsindən Sov.İKP MK Rəyasət Heyətinin 1954–1964-cü illər arasında bir sıra mühüm iclasların stenoqramları, sosial-siyasi və inzibati-təsərrüfat əhəmiyyətli qərar və qətnamələrdən ibarət sənədlər toplusu, akademik Aleksandr Yakovlevin redaktorluğu altında "Rusiya. XX əsr" silsiləsindən nəşr edilmiş Sov.İKP MK-nın iyun (1957-ci il) və oktyabr (1957-ci il) plenumlarının stenoqrafik materialları, Karl Aymermaxerin məsul redaktorluğu altında nəşr edilmiş XX qurultayda Stalinin şəxsiyyətinə pərəstiş haqqında Nikita Xruşşovun məruzəsi və ona əlavə edilən sənədlər toplusu, "Rusiya: XX əsr" silsiləsindən "Beriya işi" sənədlər toplusu və son illərdə işıq üzü görmüş digər sənəd topluları və məcmuələrindən istifadə edilmişdir.[1]

SSRİ-nin dağılmasından sonra Rusiyada 50-ci illərin siyasi prosesləri, Nikita Xruşşovun siyasi portreti və onun islahatlarının yarımçıq xarakteri, XX qurultayın tarixdə yeri, həmin dövrün milli etnik münasibətləri və bütövlükdə ölkədə baş vermiş antisovet millətçi xarakterli meyillər haqqında çox maraqlı tədqiqat əsərləri, monoqrafik araşdırmalar, memuarlar və tarixi oçerklər nəşr edilmişdir.[2] Bu araşdırmalar içərisində nəzəri ümumiləşdirmələr, arxiv mən-

[1] Молотов, Маленков, Каганович. 1957. Стенограмма июньского пленума ЦК КПСС и другие документы. Под ред. акад. А.Н.Яковлева. М., 1998; Лаврентий Берия. 1953 г.: Стенограмма июльского пленума ЦК КПСС и другие документы. Под ред. А.Н.Яковлева. М., 1999; Георгий Жуков. Стенограмма октябрьского (1957 г.) пленума ЦК КПСС и другие документы. Под ред. А.Н.Яковлева. М., 2001; Доклад Н.С.Хрущева о культе личности Сталине на XX съезде КПСС: Документы. М., 2002; Президиум ЦК КПСС. 1954–1964. Черновые протокольные записи заседаний. Стенограммы. Постановления. В 3-х томах, т. 1. Гл. ред. А.А.Фурсенко. М., 2004; Культура и власть от Сталина до Горбачева. Цензура в Советском Союзе. 1917–1991; Документы. РОССПЕН, 2004; Сталинские депортации. 1928–1953. Под общ. ред. акад. А.Н.Яковлева, М., 2005; Сталин и космополитизм. 1945–1953. Документы Агитпропа ЦК. Под общ. ред. акад. А.Н.Яковлева. Сост. Д.Г.Наджафов, З.С.Белоусова. М., 2005; Президиум ЦК КПСС. 1954–1964. Черновые протокольные записи заседаний. Стенограммы. Постановления. В 3-х томах, т. 2, Гл. ред. А.А.Фурсенко. М., 2006; Региональная политика Н.С.Хрущева. ЦК КПСС и местные партийные комитеты. 1953–1964 гг. Москва, РОССПЭН, 2009; На "краю" Советского общества: социальные маргиналы как объект государственной политики, 1945–1960-е гг. Составители Е.Ю.Зубкова, Т.Ю.Жукова. Москва, РОССПЭН, 2010; Дело Берия. Приговор обжалованию не подлежит. Сост. В.Н. Хаустов. М.: МФД, 2012.

[2] Анатолий Пономарев. Н.С.Хрущев: путь к лидерству. Изд-во "Знание", 1990; Елена Зубкова. Общество и реформы 1945–1964. Москва, "Россия Молодая", 1993; Олег Лейбович. Реформа и модернизация в 1953–1964 гг. Пермь, 1993; Владимир Козлов. Массовые беспорядки в СССР при Хрущева и Брежнева (1953-начало 1980-х гг.). Новосибирск: Сибирский хронограф, 1999; Никита Хрущев. Воспоминания. Время, люди, власть, т. 1–4, М., 1999; Крамола. Инакомыслые